

***Aysel Əliyeva***

## *Könlum Qarabağa getmək istəyir*

Arzu ağacının kökü saralır,
Yarı-yaraşığı, görkü saralır.
Dilimdə son yarpaq turku saralır,
Könlüm Qarabağa getmək istəyir.

Düşmən tapdağında binələrimiz,
Dərdə meydan olub sinələrimiz.
Hər gun ağı deyir nənələrimiz,
Könlüm Qarabağa getmək istəyir.

Ayrılıq küləyi yolur saçımı,
Heç kim yarıtmadı ehtiyacımı.
Yer yoxdu dəfn edim ağrı-acımı,
Könlüm Qarabağa getmək istəyir.

Qələbə yolları donub nağıla,
Düşmənin tifaqı gərək dağıla.
Daha təsəllilər batmır ağıla,
Könlüm Qarabağa getmək istəyir.

Burda babalarım xaniman qurdu,
Hər gün əzizlədi, hər gün qorudu.
Yaralı qəlbimin yaralı yurdu,
Könlüm Qarabağa getmək istəyir.

Arzular əlində tutubdu çiçək,
Qələbə ətirli o gün gələcək.
Dur əsgər qardaşım, qılıncını çək,
Könlüm Qarabağa getmək istəyir.

## *Azadlıq bayramı*

Azadlıq sevdası sonsuz fərəhdi,
Qoymadı gözlərdə peymani-əhdi.
Bir dəfə yüksələn bayraq enmədi,
Azadlıq bayramın mübarək, Vətən!

Azadlıq sövqünə çökəndə kədər,
Yurdu yıxılmağa qoymadı Öndər.
Arzu bağçasında güllər təzə-tər,
Azadlıq bayramın mübarək, Vətən!

Gördükcə köksündə axan qanları,
Boğub ağrı dolu həyəcanları.
Basıb öz bağrına şəhid canları,
Azadlıq bayramın mübarək, Vətən!

Bu böyük arzuyla yaşadı millət,
Bu eşqi qəlbində daşıdı millət.
Olub azadlığın yaşıdı millət,
Azadlıq bayramın mübarək, Vətən!

Əzablı yolların ünvanı solub,
Ümidlər möhnətin saçını yolub.
Sevincdən millətin gözləri dolub,
Azadlıq bayramın mübarək, Vətən!

Qapısı bağlanıb dərdin, gileyin,
Üzü çiçək açıb arzu-diləyin.
Ətrini duyuruq müstəqilliyin,
Azadlıq bayramın mübarək, Vətən!

## *Qələbə sorağında*

Baş qoyub misrama, üşüyür hər gün,
Anamın laylası, atamın səsi.
Utanır könlümdə xatirələrdən,
Dilimdən yıxılır "ümid" kəlməsi.

Üz tutub Ağdama gedən yolların,
Ürəyi qırılıb ürəyim kimi.
Yağı tapdağında qalan gəncliyim,
De, kimi çağırıb, səsləyim kimi?!

Ürəyim qaralmış bir ocaq yeri,
Göz yaşım dağılıb boyunbağı tək.
Götür bir misranı Füzuli babam,
Ağdama təsəlli verməyə gedək...

Qıvrılır düşmənin ayağı altda,
Mənim uşaqlığım keçən o yerlər.
Allahım, ömrümü nəzir verərəm,
Qələbə sorağı gətirsə yellər...

ədalət.-2018.-24 may.-s.8.